# MƏŞĞƏLƏ VƏSAITI

# ETNIK AZLIQLARIN GÜRCÜSTANA VƏ AVROPAYA INTEQRASIYASI

Noyabr | 2020

With the support of the Erasmus+ Programme of the European Union

More Europe in Georgia

GIP საქართველოს პოლიტიკის ინსტიტუტი GEORGIAN INSTITUTE OF POLITICS

# Məşğələ Vəsaiti

## Etnik azlıqların Gürcüstana və Avropaya inteqrasiyası

Noyabr | 2020

Məşğələ vəsaiti Gürcüstan Siyasət İnstitutunun (GIP) təşəbbüsü ilə adıçəkilən institutun idarə heyətinin üzvü Qiorqi Sordia və siyasət analitiki Salome Minesaşvilinin müəllifliyi ilə, Avropa Birliyi tərəfindən maliyyələşən Erasmus+ Jan Mone "Avropa üçün həvəsləndir və hərəkətə keç" layihəsi çərçivəsində tərtib olunmuşdur.

Məşğələ vəsaitinin hazırlanmasında Avropa Birliyi və etnik azlıqlar məsələləri üzrə mütəxəssislər yer alıblar:

**Qiorqi Sordia,** Etnik Mənsubiyyət və Multikulturalizm Araşdırma Mərkəzi (CSEM)
**İvane Çxikvadze,** Açıq Cəmiyyət Gürcüstan Fondu (OSGF)
**Nino Marcanişvili,** Tiflis Erasmus Tələbələri Şəbəkəsi (ESN)
**Korneli Kakaçia,** Gürcüstan Siyasət İnstitutu (GIP)
**Elene Pançuladze,** Avropa Kollecinin (Brüqe, Belçika)
**Natia Dağelişvili,** Qafqaz İqtisadi və Sosial Araşdırmalar İnstitutu (CIESR)

Gürcü dilindən azərbaycan dilinə tərcümə: **Elnur Əlisoy**

Gürcüstan Siyasət İnstitutu (GIP) qeyri-kommersiyal, bitərəf, araşdırma və analitika təşkilatıdır. Gürcüstan Siyasət İnstitutu tədqiqat və advokatlaşdırma yolu ilə Gürcüstanda demokratik institutların təşkilatlaması əsaslarının və effektiv idarəetmə prinsiplərinin inkişafına çalışır.

"Nəşr Avropa Komissiyasının dəstəyi ilə hazırlanmışdır. Onda ifadə olunan fikirlər müəllifə məxsusdur. Avropa Komissiyası və Gürcüstan Siyasət İnstitutu materialın məzmununa görə məsuliyyət daşımır".

"The European Commission support for the production of this publication does not constitute endorsement of the contents which reflects the views only of the authors, and the Commission cannot be held responsible for any use which may be made of the information contained therein."

© Georgian Institute of Politics, 2020
13 Aleksandr Pushkin St, 0107 Tbilisi, Georgia
Tel: +995 599 99 02 12
Email: info@gip.ge
For more information, please visit
www.gip.ge

# MÜNDƏRICAT

03 ÖN SÖZ

04 GIRIŞ

05 TƏDRIS VƏSAITININ ISTIFADƏ QAYDALARI

MƏŞĞƏLƏ PROQRAMI

06 **MÖVZU 1:** AVROPA BIRLIYI VƏ GÜRCÜSTAN: ƏMƏKDAŞLIQ TARIXI VƏ FORMATLAR
07 1.1. Gürcüstanın xarici siyasətinin Avropalaşması: problemlər və perspektivlər
09 1.2. Avropa Birliyinin qonşuluq siyasəti və şərq tərəfdaşlığı: bu formatlar Gürcüstan üçün nə deməkdir?

11 **MÖVZU 2:** ETNIK AZLIQLAR VƏ AVROPA BIRLIYI
12 2.1. Avropa siyasət kontekstində azlıqların hüquqları və öhdəlikləri

14 **MÖVZU 3:** AVROPA BIRLIYI -GÜRCÜSTAN PROQRAMLARI
15 3.1. Avropa Birliyi ilə sərbəst ticarət
17 3.2. Avropa Birliyi və Şenqen bölgəsinə vizasız səyahət
19 3.3. Avropa Birliyi ilə təhsil proqramları

21 ƏLAVƏ 1: MƏŞĞƏLƏ DÖVRÜ
23 ƏLAVƏ 2: MƏŞĞƏLƏNIN QIYMƏTLƏNDIRMƏ FORMASI
27 ƏLAVƏ 3: TƏLIMÇILƏR ÜÇÜN TƏLIMAT
29 ƏLAVƏ 4: ƏLAVƏ MƏŞĞƏLƏ MATERIALLARI

# ÖN SÖZ

Bu tədris vəsaiti Avropa birliyinin Erasmus + və Jan Monenin proqramında maliyyələşdirilmiş "Avropa üçün həvəsləndir və fəaliiyət göstər" layihəsi çərçivəsində yaradılmışdır. Layihənin məqsədi Gürcüstanın etnik azlıqlarının məskunlaşdığı regionlarda Avropaya inteqrasiya haqqında məlumat yaymaq vasitəsilə Avropa birliyi mövzularında müzakirələrə həvəsləndirməkdir. Məşğələ tədris vəsaiti Kvemo Kartli və Samtsxe-Cavaxeti regionlarının vətəndaş cəmiyyətinin və təhsil sahəsindən seçilmiş trenerlər üçün nəzərdə tutulmuşdur, ki onlar yerli əhalini yenidən hazırlaya və Avropa Birliyi haqqında məlumat yaya bilsinlər. Bu məqsədlə tədris vəsaiti gürcü, azərbaycan və erməni dillərində təqdim olunmuşdur. Tədris vəsaitinin hazırlanmasından əvvəl etnik azlıqların sıx yaşadığı bölgələrdə sahə araşdırmaları və yerli əhali ilə iş görüşləri keçirilmişdir. Tədris vəsaitinin konkret mövzları məhz qeyd olunan araşdırmalar nəticəsində seçilmişdir. Tədris vəsaitinin məzmunun və hədəf auditoriyaya çatdırılma metodlarının yaradılmasında pilot məşğələlər keçən Avropa Birliyinin və Gürcüstan- Avropa birliyi əlaqələri haqqında mövzuların ekspertləri iştirak edirdilər. Layihənin hədəf qrupunu Kvemo Kartli və Samtsxe-Cavaxetinin yerli vədəndaş cəmiyyətinin və mediyanın nümayəndələri, həmçinin müəllimlər və yerli hakimiyyət orqanları təşkil edir. Hədəf regionları Gürcüstanda etnik və dini azlıqların məskunlaşdığı sahə və vətəndaş inteqrasiyanın problemlərini nəzərə alaraq seçilmişdir. Layihə çərçivəsində yalnız Avropa siyasəti haqqında müzakirələrə həvəsləndirmək və müvafiq məşğələlər təklif etmək deyil, eyni zamanda azlıqların ehtiyaclarrının milli və beynəlxalq səviyyədə müdafiə etmək nəzərdə tutulmuşdur.

# GIRIŞ

Gürcüstan etnik baxımdan Avropada ən rəngarən dövlətlərdən birini təşkil edir. 2014-cü ildə keçirilən əhalinin sonuncu siyahıya alınmasına əsasən, əhalinin ümumi sayının 13, 2 faizini etnik azlıqlar təşkil edir. Onların arasında ən iri qrupları isə ölkənin cənub regionlarında (Kvemo Kartli və Samtsxe-Cavaxeti regionları) kompakt şəklində yaşayan azərbaycanlılar (6.2) və ermənilər (4.2) təkil edirlər. Digər etnik qruplar kompakt məskunlaşmalar daha az yaradırlar və müxtəlif regionlarda və şəhər mərkəzlərində məskunlaşmışlar. Ölkədə etnik azlıqların və mədəniyyət baxımından rəngarəng icmaların mövcud olması Gürcüstan hakimiyyəti üçün mühüm problemlırdın birinə çevrildi. Əsas problem isə müvafiq və effektiv vətəndaş inteqrasiyası siyasəti yürütməkdir. Gürcü siyasi orqanın qoşulmaya, iştiraka və pluralizmə əsaslanan dövlət yaratmağı nə dərəcədə bacaracağı bu siyasətdən əhəmiyyətli dərəcədə asılıdır.

Eyni zamanda, qeyd olunmalıdır ki, etnik azlıqların hüquqlarının qorunması və onların cəmiyyətə tamlayiqli inteqrasiya olunması Gürcüstanın Avropa siyasətinin mühüm aspektlərindən birini təkil edir. Bu yanaşma Gürcüstanın müxtəlif Avropa qurumları ilə əməkdaşlığının sənədlərində açıq şəkildə göstərilmişdir. Etnik azlıqlarla əlaqəli məsələlər Avropa Birliyi ilə imzalanan Assosiasiya Sazişində, habelə Gürcüstanın Avropa Şurası və ATƏT-dəki öhdəliklərində mühüm rol oynayır. Onların arasında etnik azlıqların qorunmasının Avropa çərçivə-konvensiyası xüsusi qeyd olunmalıdır, bu konvensiya imza atan ölkə üçün məcburi hüquqi mexanizmlər tətbiq edir, bu etnik azlıqların hüquqlarının qoruyan ən birinci beynəlxalq mexanizmdir.

Əsas siyasi prioriteti Avropa yönümlülük olan Gürcüstan etnik azlıqlarla münasibətdə iştiraka və inteqrasiyaya yönəlmiş proqramlar həyata keçirməyə məcburdur. Müvafiq Avropa qurumları ilə hesabat mexanizmlırinin yaradılması və daxili hüquqi mexanizmlırin təmin olunması bunu ifadə edir. Bu mexanizmlər etnik azlıqların ehtiyaclarının müəyyənləşdirilməsinə və inteqrasiya üçün müvafiq tədbirlərin alınmasına yönəlmişdir. Bu məqsədə çatmaq üçün Gürcüstanda 2005-ci ildən bəri milli azlıqların vətəndaş inteqrasiyası və tolerantlıq konsepsiyası və müvafiq fəaliyyət planları həyata keçirilir.

Konsepsiya aşağıdakı ümumi məqsədlərə çatmağa yönəlmişdir: mülki və siyasi həyatda bərabərhüquqlu və tamlayiqli iştirak; bərabər sosial və iqtisadi şəraitlərin və imkanların yaradılması; keyfiyyətli təhsilə əlçatanlığı təmin etmək və dövlət dili biliyinin yaxşılaçdırılması; etnik azlıqların mədəniyyətinin qorunub saxlanılması və tolernt mühitin yaradılması. Lakin, buna baxmayaraq, Gürcüstanda yaşayan etnik azlıqlar arasında, həm Gürcüstanın Avropa siyasəti, həm də azlıqlarla əlaqədar proqramlar haqqında şüur səviyyəsi çox aşağıdır. Bu isə ölkənin təhlükəsizliyinə və cəmiyyətdə Avropa dəyərlərinin yayılmasına mənfi təsir göstərir. Təqdim olunan məşğələ tədris vəsaiti məhz bu əsas problemin mövcudluğu ilə əlaqədardır və etnik azlıqların Avropa birliyi haqqında məlumatlandırılması məqsədini daşıyır.

Məşğələ materialı Avopa Birliyi-Gürcüstan Assosiasiya müqaviləsi vasitəsilə verilən üstünlükləri əldə etmək üçün həm nəzəri, həm də təcrübi bilikləri birləşdirir. Birinci mövzu Avropa Birliyi və Gürcüstanın Avropa siyasətinin nəzəri çərçivəsini təkil edir, Gürcüstanın xarici siyasətinin avropalaşması və onu müşaiyət edən problemlər və perspektivlər; Avropa- Gürcüstan əməkdaşlığının formatları və onların mahiyyəti kimi alt mövzuları əhatə edir. İkinci mövzu Gürcüstanın avropa siyasəti çərçivəsində etnik azlıqların rolu və hüquqları ilə əlaqədardır. Üçüncü mövzu əsasən praktik məsələləri əhatə edir, məsələn, avropa birliyi ilə sərbəst ticarət, vizasız giriş və təhsil proqramları kimi üstünlüklərdən vətəndaşlar necə istifadə edə bilərlər.

# TƏDRIS VƏSAITININ ISTIFADƏ QAYDALARI

Təqdim olunan dərslik müvafiq hədəf qruplarında Gürcüstanın avropa siyasəti və etnik azlıqlar haqqında treninq keçirəcək etnik azlıqların kompakt şəkildə məskunlaşdığı regionlardan (Kvemo Kartli və Samtsxe-Cavaxeti) seçilmiş təlimçilər üçün nəzərdə tutulmuşdur. Dərslik qeyd olunan təlimçilər üçün hər bir mövzunun əsas məzmun aspektlərini və materialın çatdırılması çərçivəsini əhatə edən bir köməkçi materialdır.

Dərslikdə məşğələlərin ümumi məqsədləri, aktuallığı, müzakirə olunacaq məsələlırin ümumi təhlili və faydalı mənbələr əks olunmuşdur. Əlavə olaraq dərslikdə praktik məlumatlar verilmişdir. Məsələn, məşğələnin cədvəli, məşğələyə hazırlıq mərhələləri, qiymətləndirmə formaları, təlimatlar və əlavə məşğələ materialları. Əlavə məşğələ materiallarınaməşğələdə təqdim olunan hər bir mövzu haqqında onun ümumi quruluşuna və müddətinə görə qısa məlumat daxildir.

Məşğələyə başlamazdan əvvəl təlimçilər tərəfindən məşğələnin ümumi məqsədlərinin və gözlənilən nəticələrin yaxşı dərk edilməsi mühümdür, məsələləri müzakirə edərkən diqqəti Gürcüstanən Avropa siyasətinə və Gürcüstanda Avropa dəyərlərinin tətbiq olunmasına yönəltdinlər. Məşğələni planlaşdırmadan əvvəl məşğələ dövrünün quruluşuna riayət etmək tövsiyə olunur (Əlavə 1). Təqdim olunan mövzuların xülasəsi və əlavə materiallar ümumi istiqamət verməyə xidmət edir, lakin təlimçilər təlimatlara uyğun olaraq hər bir mövzunun xülasəsini müvafiq auditoriyaya uyğunlaşdıra bilərlər (Əlavə 3).

Mövzunun genişləndirilməsi və ya dəyişdirilməsi prosesində faydalı mənbələr köməkçi funksiyanı yerinə yetirir. Məşğələnin sonunda iştirakçıların məğələlərin yaxşılaşdırılması və təkmilləşdirilməsi məqsədi ilə qiymətləndirmə formasından (Əlavə 2) istifadə etmələri tövsiyə olunur:

Dərslikdə verilmiş məşğələlər 3 günə bölünmüşdür, bu müddət ərzində təlimçilər altı mövzudan birini və uyğun olaraq onların ardıcıllığını da  seçə biləcəklər. Məşğələlərin bölünməsi aşağıdakı kimi tövsiyə olunur:

**1-ci gün:** Giriş, I mövzu
**2-ci gün:** II və III mövzu
**3-cü gün:** IV və V mövzu; nəticə

# MƏŞĞƏLƏLƏRIN PROQRAMI

## MÖVZU 1: AVROPA BIRLIYI VƏ GÜRCÜSTAN: ƏMƏKDAŞLIQ TARIXI VƏ FORMATLARI

# 1.1. Gürcüstanın xarici siyasətinin avropalaşdırılması: problemlər və perspektivlər

### Məşğələnin məqsədi

Məşğələnin məqsədi iştirakçılara Gürcüstanın xarici siyasətinin hazırkı problemləri haqqında məlumat verməkdir. Həmçinin, içtirakçılar ölkənin avroplaşdırılması perspektivləri və buna mane olan faktorlarla və bu vaxta qədər əldə edilmiş tərəqqi ilə tanış olacaqlar. Bundan əlavə, Məşğələ iştirakçılara ölkənin Avropaya inteqrasiya istiqamətində təkcə Gürcüstanın perspektivi haqqında deyil, həm də AB ölkələrinin  perspektivləri barədə bir təsəvvür vermək məqsədi daşıyır. Sonda, məşğələ çərçivəsində iştirakçılar Gürcüstan üçün mümkün Avropaya inteqrasiya modelləri ilə tanış olacaqlar və müqayisə perspektivində regional və fərdi inteqrasiya modelləri haqqında məlumat əldə edəcəklər.

### Məşğələnin nəticələri

Məşğələ başa çatdıqdan sonra iştirakçılar Gürcüstanın Avropaya inteqrasiya prosesini müstəqil şəkildə müzakirə edə və ölkənin qeyd olunan  sahədə tərəqqisini və problemlərini müəyyənləşdirə biləcəklər. Bundan əlavə,məşğələnin sonunda iştirakçılar ölkənin Avropaya inteqrasiyası və avropalaşma prosesi ilə əlaqəli Gürcüstan və Avropa perspektivlərini müqayisəli təhlil edə biləcəklər. Nəhayət, məşğələ çərçivəsində statistik məlumatların işlənməsi nəticəsində, ölkənin Avropaya inteqrasiya prosesi ilə əlaqəli statistik məlumatları başa düşə və birbaşa məsələ ilə əlaqələndirə biləcəklər.

### Mövzunun təsviri

Təxminən iki onillikdir ki, Gürcüstan postsovet məkanında olan digər ölkələrlə müqayisədə Avropaya inteqrasiya üzərində daha intensiv işləyir (Baltikyanı ölkələri çıxmaqla). Bu fəaliyyət sabit siyasi qurumların inkişaf etdirilməsi, davamlı təhlüksəsizliyin və funksional demokratik sistemin təşkil olunması məqsədini daşıyır. Uzun illər əvvəl Gürcüstan qarşısına qanunun aliliyini yaratmaq və demokratik qurumlar təşkil emək məqsədini qoydu. Gürcüstan, 24 iyun 2014-cü il tarixində AB ilə Assosiasiya müqaviləsini imzalayaraq, insan hüquqları, demokratikləşmə və 'yaxşı idarəetmənin' Avropa Birliyinə hüquqi olaraq yaxınlaşdırılması haqqında öhdəlik götürdü. Razılaşma Gürcüstanı təkcə Avropa Birliyinə yaxınlaşdırmır, əksinə onu Cənub Qafqazda qərbyönümlü məşğulluğu baxımından və Şərq Tərəfdaşlığı hissəsində cazibə mərkəzi mövqeyinə sahib olmasını bir daha təstiq etdi.

Gürcüstanın Avropaya inteqrasiya prossesi idarəetmə və demokratikləşmə istiqamətində möhkəm daxili müsbət islahatların keçirilməsini təmin etdi. Lakin, Gürcüstanın Avroatlantik arzuları siyasi səviyyədə davam edərkən, ictimai səviyyədə Avropa dəyərləri istiqamətində kifayət qədər böyüyən, nəzərə çarpan bir yorğunluqla qarşılaşırıq. Ölkədə davam edən avropalaşma prosesinin əsas zəif cəhətlərindən biri Gürcüstan və digər Avropa cəmiyyətləri arasında olan uzaqlıqdır (fərqlilikdir), bu isə ortaq təcrübənin olmaması və ictimai müzakirələrdə iştirak etmək təcrübəsinin azlığından irəli gəlir.

Gürcüstan öz ritorikası ilə Avropanın bir hissəsidir, amma əslində, ölkə Avropa həqiqəti haqqında çox məhdud bilik və anlayışa sahibdir.

## Müzakirə ediləcək əsas məsələlər

- Avropalaşma prosesində Gürcüstanın siyasi problemləri və perspektivləri;
- Avropaya inteqrasiya yolunda addımlar;
- Gürcüstanın Avropa Birliyinə üzv ölkələr tərəfindən görülən Avropaya inteqrasiya perspektivləri;
- Gürcüstanın Avropa inteqrasiya modelləri: regional inteqrasiya və fərdi inteqrasiya.

## Faydalı mənbələr və ədəbiyyat


1. B.Lebanidze, Gürcüstanın avropa inteqrasiyası: şərqi əməkdaşlıqdan sonra nə olacaq? GIP, 2017. http://gip.ge/ge/საქართველოს-ევროპული-ინტ/
2. C. Larsen, Problemli qonşuluq: Gürcüstan avtoritar rejimdən irəli gələn təzyiqin öhdəsindən necə gələcək, GIP, 2018. http://gip.ge/ge/პრობლემური-სამეზობლო-რო/
3. M. Qriqaşvili və M. Sarcveladze, Gürcüstanın Viza Liberalizasiyası Problemləri: Siyasi Kontekst və Statistika, GIP, 2018. http://gip.ge/ge/საქართველოს-ვიზალიბერალ/
4. B. Lebanidze və E. Pançulidze, Keçid dövründə Avropa Birliyi ilə Əməkdaşlıq: Gürcüstan üçün Strategiya, GIP, 2018. http://gip.ge/ge/ევროკავშირთან-თანამშრო/
5. I. Kaxişvili, Gürcüstanda Demokratik Konsolidasiya: Konsensus niyə mühümdür? GIP, 2018. http://gip.ge/ge/დემოკრატიული-კონსოლიდაც/
6. Mütəxəssis şərhi # 9: Albaniya və Şimali Makedoniya ilə danışıqların başlamasına qoyulan veto Gürcüstan, Moldova və Ukraynanın Avropaya can atması üçün deməkdir?, GIP, 2019. http://gip.ge/ge/რას-ნიშნავს-ალბანეთთან-დ/
7. K. Kakaçia, K. Betqeri, B. Lebanidze, V. Palm və Mixeil Sarcveladze, Avroatlantik inteqrasiya kontekstində Gürcüstan-Alman münasibətləri - Gözləntiləri necə qarşılamaq olar?, GIP, 2019. http://gip.ge/ge/ქართულ-გერმანული-ურთიერთ/
8. Gürcüstan Xarici İşlər Nazirliyi. Gürcüstan-AB münasibətlərindəki mühüm hadisələrin xronologiyası. https://bit.ly/31avPgh
9. Gürcüstan Xarici İşlər Nazirliyi. Avropa və Avroatlantik inteqrasiya: Faydalı məlumatlar.
10. Gürcüstan Xarici İşlər Nazirliyi. Assosiasiya haqqında razılıq. https://bit.ly/3gbtHZS
11. NATO və Avropa Birliyi haqqında məlumat mərkəzi. Gürcüstan və Avropa Birliyi. http://old.infocenter.gov.ge/georgia-and-the-european-union/
12. NATO və Avropa Birliyi haqqında məlumat mərkəzi. AB-Gürcüstan Əməkdaşlığı: faktlar və saylar. http://old.infocenter.gov.ge/1655-evrokavshirsa-da-saqarthvelos-thanamshromloba-faqtebi-da-rickhvebi.html

# 1.2. Avropa Birliyinin qonşuluq siyasəti və şərq tərəfdaşlığı: bu formatlar Gürcüstan üçün nə deməkdir?

### Məşğələnin məqsədi

Məşğələnin məqsədi etnik azlıqların məskunlaşdığı regionlarda əhaliyə Gürcüstan- Avropa birliyi əlaqələri, xüsusi ilə də Gürccüstanın Avropa birliyi ilə əməkdaşlığının formatları haqqında məlumat çatdırmaqdır. Məşğələ Avropa Birliyinin qonşuluq siyasətini, onun məqsədlərini və inkişaf mərhələlərini, həmçinin şərq əməkdaşlığı təşəbbüsünü qısaca olaraq təhlil edir və iştirakçılara siyasi, iqtisadi və cəmiyyətlər arasında əlaqələr yaratmaq baxımından qeyd olunan formatlarda Gürcüstanın iştirakının nə demək olduğunu izah edir. Qeyd olunan komponent çərçivəsində şərq əməkdaşlığı təşəbbüsünün əsas istiqamətlərini: (1) siyasi inkiaşf və bazar imkanlarını; (2) qurumların gücləndirilməsi və yaxşı idarəetməni; (3) əlaqələrin gücləndirilməsini, enerjieffektliyini, ətraf mühit və iqlim dəyişikliklərini; (4) yerdəyişmə və insanlarla ünsiyyəti - iştirakçılar üçün öyrənməyə və analiz etməyə kömək edən praktik hissə təqdim olunmuşdur.

### Məşğələnin nəticələri

Məşğələnin sonunda iştirakçılar: məşğələnin mövzusu ilə əlaqəli məlumatı toplamağı və analiz etməyi, qeyd olunan mövzu haqqında yazılı formada sənəd hazırlamağı, məşğələ çərçivəsində alınan material əsalanaraq çıxış / məşğələ hazırlamağı; məşğələ çərşivəsindı müzakirə olunan mövzular haqqında sərbəst müzakirə etməyi / söhbət etməyi; məşğələnin mövzusu ilə bağlı suallara və şərhlərə cavab verməyi; məşğələnin mövzusu çərçivəsində müzakirə olunan Avropa Birliyi-Gürcüstan münasibətlərinin müxtəlif sahələrini müstəqil şəkildə araşdırmağı; Lazım gələrsə, Avropa birliyinin qonşuluq siyasəti və şərq tərəfdaşlığı prosesində Avropa birliyinin rolu haqqında məlumat axtarmağı/yoxlamağı; məşğələ çərçivəsində əldə edilmiş material əsasında praktik tapçərəq hazırlamağı bacaracaqlar.

### Mövzunun təsviri

Avropa Qonşuluq Siyasəti, 2004-cü ildə 10 yeni ölkənin Avropa Birliyinə üzv qəbul edilməsindən sonra hazırlandı və məqsədi Avropada yeni ayrılma xətlərinin qarşısını almaq idi. Bu siyasət sayəsində Avropa Birliyi qonşularına ortaq dəyərlərə can atmağa (demokratiya və insan hüquqları, qanunun aliliyi, yaxşı idarəetmə, bazar iqtisadiyyatı prinsipləri və davamlı inkişaf) əsaslanan imtiyazlı əlaqələr təklif edir. Avropanın qonşuluq siyasəti mövcud münasibətlərdən kənara çıxır və tərəfdaşlara islahatlar yolu ilə daha dərin siyasi münasibətlər və islahatlar həyata keçirməklə iqtisadi inteqrasiya təklif edir. Sülh, sabitlik və iqtisadi rifah əldə etməyinvasitəsi məhz bu islahatlardır. Avropanın qonşuluq siyasəti onunla quru və su sərhəddi olan Gürcüstan da daxil olmaqla qonşu ölkələri əhatə edir.Şərq tərəfdaşlığı (Eap) Avropa Birliyi, ona üzv ölkələr və onun altı şərq qonşusu (Ermənistan, Azərbaycan, Belarusiya, Gürcüstan, Moldova və Ukrayna) arasında əlaqələrin dərinləşdirilməsi və möhkəmləndirilməsi məqsədini daçıyan kollektiv bir siyasi təşəbbüsdür.

Bu çərçivədə, Avropa Birliyinin qonşuları ilə əlaqələrinin bələdçisi onun şərq qonşularının sabitliyini və davamlılığını artırmağa yönəlmiş Avropa Birliyinin Qlobal Strategiyası və yenilənmiş Avropa qonşuluq siyasətidir. Bu çərçivədə bölgədə yaşayan vətəndaşların hiss olunan nəticələrinin təmin edilməsi üçün ortaq bir öhdəlik var.

Bu məqsədlərə çatmaq üçün 2015-ci ildə Riqada keçirilmiş Şərq Tərəfdaşlığı Sammitində əldə olunmuş razılığa əsasən, əməkdaşlıq dörd əsas prioritet sahəyə əsaslandı. Onlar aşağıdakılardır: siyasi inikişaf və bazar imkanları, qurumların gücləndirilməsi və yaxşı idarəetmə, əlaqələrin dərinləşdirilməsi, enerjieffektliyi, ətraf mühit və iqlim dəyişiklikləri, yerdəyişmə və xalqlar arasında ünsiyyət. Bundan əlavə, bütün sahələrdə gender bərabərliyini və ayrı-seçkiliyi aradan qaldırmaq, daha açıq və fərdi strateji kommunikasiya siyasətini həyata keçirmək üçün vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə struktur qarşılıqlı əlaqələr həyata keçirilir.

## Müzakirə ediləcək əsas mövzular

- AB-Gürcüstan əməkdaşlıq formatları;
- Avropanın qonşuluq siyasəti;
- Şərq tərəfdaşlığı siyasəti.

## Faydalı mənbələr


1. M. Emerson və T. Kovziridze. Gürcüstan və Avropa Birliyi: Qısa bələdçi. http://www.dcfta.gov.ge/public/filemanager/publications/pub2.pdf
2. EU Neighbours. 2020-ci ildən sonra şərq tərəfdaşlığı: həyatqabiliyyətinin gücləndirilməsi - hamı üçün şərq tərəfdaşlığı. https://www.euneighbours.eu/sites/default/files/publications/2020-03/EaP%20joint%20communication_factsheet4_GE.pdf
3. EU4Businnes. Şərq tərəfdaşlığı. https://eu4business.eu/ka/agmosavletis-partnioroba B.Lebanidze və E.Pançulidze. Keçid dövründə Avropa Birliyi ilə əməkdaşlıq: Gürcüstan üşün strategiya. GIP. http://gip.ge/wp-content/uploads/2018/05/PrintEleneBidzinaGEO.pdf



# MƏŞĞƏLƏLƏRIN PROQRAMI

## MÖVZU 2: ETNIK AZLIQLAR VƏ AVROPA BIRLIYI

# 2.1. Avropa siyasət kontekstində azlıqların hüquqları və öhdəlikləri

### Məşğələnin məqsədi

Məşğələnin məqsədi iştirakçıları etnik və milli azlıqların ümumi hüquqları ilə tanış etməkdir. Həmçinin, Avropa siyasəti kontekstində azlıqların rolu və yeri nədir, azlıqların qorunması və inteqrasiyası üçün Avropa siyasətinin hədəfləri nədir və ölkənin Avropa qurumlarına inteqrasiya prosesində beynəlxalq və yerli öhdəlikləri nələrdir. Məşğələ, həmçinin, etnik azlıqların ladşaftını göstərmək və onların problemləri ilə tanış olmaq məqsədi daşıyır.

### Məşğələnin nəticələri

Məşğələnin sonunda iştirakçılar həm Gürcüstan, həm də Avropa miqyasında azlıqları dəqiq identifikasiya, onların ehtiyaclarını və problemlərini müəyyənləşdirə, azlıqların hüquqlarının qorunması istiqamətində atılan addımları və həyata keçirilən proqramları qiymətləndirə biləcəklər. İştirakçılar azlıqların qorunması və inteqrasiyası üçün hansı konkret beynəlxalq mexanizmlərin mövcud olduğunu, Gürcüstanın bu sahədə hansı öhdəlikləri götürdüyünü və onların necə həyata keçirildiyini biləcəklər. Məşğələ iştirakçıları həmçinin konkret etnik qrupların məskunlaşma sahəsi, müvafiq olaraq statistik məlumatların öyrənilməsi daxil olmaqla Gürcüstanın etnik müxtəlifliyinin təsvirini dərk etməyi dəqiq bacaracaqlar.

### Mövzunun təsviri

Gürcüstan çoxmillətli ölkədir. 2014-cü ildə keçirilən əhalinin axırıncı siyahıya alınmasına əsasən, Gürcüstan əhalisinin ümumi sayının təxminən 13ş2 faizini etnik azlıqlar təşkil edir, onların arasında ən iri qrupları ölkənin cənub regionlarında (Kvemo Kartli və Samtsxe-Cavaxeti regionları) kompakt şəklində yaşayan azzərbaycanlılar (6.2 faiz) və ermənilər (4.5 faiz) təkil edirlər. Digər etnik qruplar daha az kompakt məskunlaşmalar yaradırlar və müxtəlif regionlarda və şəhər mərkzlərində yaşayırlar. Bu cür müxtəlifliyi nəzərə alaraq, ölkə azlıqların qorunmasına və inteqrasiyasına yönəlmiş bir siyasət yürüdür ki, bu da Gürcüstanın Avropa siyasəti ilə üst-üstə düşür. Azlıqların hüquqları həm Avropa Birliyi, həm də Avropa qurumları üçün əsas dəyərlərdən birini təşkil edir. Bu məsələləri nəzərə alaraq, məşğələ 4 əsas mövzuya diqət yönəldir. Bu mövzular aşağıdakılardır: Milli azlıqların beynəlxalq hüquqi tərifi necədir, kimlər milli azlıq hesab olunur; azlıqların hüquqları Avropada necə müəyyən olunur və müxtəlif Avropa qurumları hansı öhdəlikləri tətbiq edir, Gürcüstanda azlıqların qorunmasını və müxtəlifliyin idarə olunmasını təmin edən hansı yerli öhdəliklər mövcuddur; Gürcüstanda azlıqların qorunmasının beynəlxalq hüquqi mexanizmləri və onların istifadəsi.

### Müzakirə ediləcək əsas mövzular

- Azlıqlar anlayışının beynəlxalq hüquqi tərifi (etnik və milli azlıqlar necə müəyyən edilir, bu anlayışlar arasında nə kimi fərq var, azlıqların qorunması və inteqrasiyası üçün hansı beynəlxalq modellər mövcuddu. Modellər müxtəlif ölkələrin təcrübəsi və siyasi ənənələrini göstərməklə müzakirə ediləcək);
- Gürcüstanda azlıqlar (Gürcüstanda etnik və milli azlıqlar kimlərdir, statistik məlumatlar və məskunlaşdıqları sahə, azlıqlara qarşı dövlətin siyasəti, dövlət tərəfindən etnik azlıqların qavranılması necədir və o azlıqlar siyasətinin hansı beynəlxalq modelinə yaxındır);

- Azlıqlar siyasətinin idarə olunmasının beynəlxalq mexanizmləri və onların həyata keçirilməsi. (Məşğələnin bu hissəsində əsas diqqət beynəlxalq Avropa mexanizmlərinin mahiyyətinə və onların tətbiqinə yönəldiləcək. Avropa Şurası, Avropa Birliyi və ATƏT-in müvafiq qaydaları ətraflı şəkildə təqdim ediləcək. Mqzakirə olunan mexanizmlər arasında: Avropa Şurası Milli Azlıqların Müdafiəsinin Çərçivə Konvensiyası, regional və ya azlıqların Dilləri üzrə Avropa Xartiyası və ATƏT-in azlıqların qorunması və inteqrasiya sahəsində tematik tövsiyələri var. Hər bir beynəlxalq mexanizmin əsas məqsədləri və mahiyyəti, iştirakçı dövlətlərdə bu məqsədlərin praktiki həyata keçirilməsini təmin edəcək praktiki mərhələlər və qaydalar müzakirə ediləcək);
- Azlıq hüquqlarının qorunması və onların iteqrasiyası sahısində Gürcüstan tərəfindən qəbul olunan beynəlxalq və yerli öhdəliklər; Bu öhdəliklər necə həyata keçirilir; beynəlxalq mexanizmlərə qarşı hansı növ hesabat mövcuddur və bu prossesdə yerli, gürcü vətəndaş cəmiyyəti təçkilatlarının rolu və funksiyası necədir.

## Faydalı mənbələr


1. Azlıqların İdarəetmə Siyasəti: Praktik tədris vəsaiti. Avropa Azlıq Məsələləri Mərkəzi, Tbilisi 2012
2. Etnik Azlıqların Hüquqları ilə əlaqədar Beynəlxalq Standartların icmalı - Tədris vəsaiti. İnsan Hüquqları araşdırma və Monitorinq Mərkəzi, 2019
3. Gürcüstanda milli azlıqların inteqrasiyası. Siyasət Məqalələri. Hollandiya Çox Partiyalı Demokratiya İnstitutu, 2017
4. Etnik azlıqların icimai və siyasi həyatda iştirakı ilə əlaqədar ATƏT-in Lundun tövsiyyələri və izahlı kart, sentyabr 1999
5. Etkin və multikulturalizm araşdırma mərkəzi tərəfindən hazırlanan kartoqrafik material və Gürcüstanın etnik müxtəlifliyinin interaktiv veb-xərirtəsi http://csem.ge/interactivemap/
6. Minority Issues in Europe: Rights, Concepts, Policy. Edited by Tove H. Malloy. Frank & Timme 2013
7. Minority Issues Mainstreaming in the South Caucasus. A Practical Guide. European Centre for Minority Issues 2011
8. The Ljubljana Guidelines on Integration of Diverse Societies. OSCE HCNM, November 20
9. Jean-Marie Woehrling. The European Charter for Regional or Minority Languages. A Critical Commentary. Council of Europe Publishing 2005
10. Filling the Frame – Five Years of Monitoring the Framework Convention for the Protection of National Minorities. Council of Europe Publishing 2004.



## MƏŞĞƏLƏLƏRIN PROQRAMI

# MÖVZU 3: AVROPA BIRLIYI – GÜRCÜSTAN PROQRAMLARI

# 3.1. Avropa Birliyi ilə sərbəst ticarət

## Məşğələnin məqsədi

Məşğələnin məqsədi dinləyiciləri Gürcüstan-Avropa Birliyi arasında mövcud olan dərin və hərtərəfli sərbəst bazar məkanı (DFCTA) çərçivəsində olan güzəştlərlə sistematik şəkildə tanış etməkdir; Məhsulun Avropa Birliyi bazarına ixrac edilərkən qarşılanması lazım olan əsas tələblər - tarif (DCFTA istisnaları) və qeyri-tarif maneələri. Eyni zamanda məşğələnin məqsədi iştirakçıların ticarət dinamikasını araşdırma və Avropa birliyinin vahid bazarında ixrac potensialına malik sektorları qiymətləndirmə və Avropa birliyi bazarına ixrac üçün lazım olan sənədlərin təqdim edə bilmə bacarıqlarını inkişaf etdirməkdir.

## Məşğələnin nəticələri

Məşğələnin sonunda iştirakçılar  DCFTA-nın həyata keçirilməsini qiymətləndirməyi; DCFTA üstünlüklərindən istifadə etməyi; Gürcüstan mənşəyini sübut etməyi (güzəştli rejimi aktivləşdirmək üçün); keyfiyyətin infrastruktur tələblərini qiymətləndirməyi; Avropa Birliyi bazarının seqmentləşdirilməsi və konkret bazara çıxış strategiyasının hazırlamağı; statistik məlumatları tapmaqla hədəf bazarlarını müəyyənləşdirməyi və rəqibləri analiz etməyi; Avropa Biriliyi bazarına ixracatın tam dəyər zəncirini qiymətləndirməyi bacaracaqlar.

## Mövzunun təsviri

Dərin və hərtərəfli sərbəst ticarət məkanı (DCFTA) ölkəni güzə.tli ticarət rejiminə keçirir və Gürcüstan və Avropa Birliyi arasında bazara çıxışı artırmaq üçün imkan yaradır, bu isə bir-biri ilə uyğunlaşdırılmış qaydalara əsaslanır. (DFCTA) Gürcüstan sahibkarlarına məhsullarını tarif maneələri və kvotaları olmadan dünyanın ən böyük bazarlarından biri olan, Avropa Birliyinin vahid bazarında yerləşdirmə imkanı verir. DCFTA-nın tətbiqi Gürcüstanın sanitar və fitosanitar qanunvericiliyini Avropa Birliyinin qanunvericiliyinə uyöunlaşdırılmasını tələb edir, bu isə, o deməkdir ki, seçilmiş sektorda hər bir gürcü sahibkar yeni tələblərə tabe olmağa məcburdur. Bu yalnız məhsulun keyfiyyətinin yaxşılaşdırılmasını və istifadəçilər üçün təhlükəsizliyini deyil, eyni zamanda məhsulun dünya miqyasında ixraca hazır olmasını təmin edəcəkdir.

Gürcüstan məhsullarının Avropa Birliyinin vahid bazarına ixracının əsas problemləri Avropa Birliyinin yüksək standartlarına uyöun gəlməməsi və düzgün olmayan istehsal zənciridir, bu da qeyri-tarif maneələrini nəzərə alaraq gürcü məhsullarının qiymətini bahalaşdırır və ixracın əhəmiyyətli artımını təmin etmir. 502 milyondan çox potensial alıcıya malik, yüksək alıcılıq qabiliyyəti ilə xarakterizə olunan Avropa Birliyinin vahid bazarına ixrac etmək, aşağıdakı ilkin şərtlərin ödənilməsi deməkdir: DCFTA-nın qüvvəyə minməsinə baxmayaraq, Avropa Birliyi bazarı yalnız Avropa bazarının daxili qaydalarına cavab verən məhsullar üçün açıqdır.

## Müzakirə olunacaq əsas mövzular

- Gürcüstanın ticarət siyasəti (ticarət müqvilələri və rejimləri, ticarətdə tarif və qeyri-tarif maneələri);
- Gürcüstan-Avropa Birliyi ixrac dinamikası ( ticarıt statistikası, uyğunlaşdırılmış mal kodlaşdırılma sistemi, ixrac olunası məhsulların dinamikası, Avropa Birliyinin vahid bazarına ixrac potensiyalı olan sektorlar);
- Dərin və hərtərəfli sərbəst ticarət məkanı (DCFTA) - razılaşmanın mahiyyəti, əsas istiqamətləri, istisnaları, keyfiyyət infrastrukturu, Gürcüstanda DCFTA-nın həyata keçirilməsi;
- DcFTA-nın güzəştlərindən necə istifadə edək? (məhsul hansı tələblərə cavab verməlidir, Avropa Birliyi bazarına çıxmaq üçün hansı prosedurları keçməlidir, maraqlanan şəxs necə qoşula bilər).

## Faydalı mənbələr

1. Avropa Birliyi ilə sərbəst ticarət. http://www.dcfta.gov.ge/
2. Assosiyasiya izi ilə. http://asocireba.ge/
3. Assosiyasiya müqaviləsinin interraktiv bələdçisi. http://aa.ge/
4. Avropa Birliyi ilə Gürcüstan əlaqələrinin dərinləşdirilməsi: Nə, Niyə, Nə üçün http://www.3dcftas.eu/system/tdf/GEO%20Handbook%202nd_GEO%20ver.pdf?file=1&type=node&id=497&force=
5. Avropa ilə Assosiyasiya müqaviləsi haqqında hər şey, http://eugeorgia.info/ka/news/soflis-meurneoba/3/
6. Kalo. https://kalo.ge/videos
7. Assosiasiya müqavilısinin mətni (gürcücə, abxazca, osetincə, azərbaycanca, ermənicə, ingliscə). http://www.parliament.ge/ge/gavigot-meti-evrokavshirtan-asocirebis-shetanxmebis-shesaxeb/associationagreement1

## 3.2. Avropa Birliyi və Şenqen bölgəsinə vizasız səyahət

### Məşğələnin məqsədi

Məşğələnin məqsədi iştifakçıları Gürcüstan-Avropa Birliyi arasında miqrasiya istiqamətində mövcud olan mövzular haqqında məlumatlandırmaqdır. Bununla birlikdə, məşğələnin iştirakçılarına Avropa birliyinə vizasız səyahət haqqında hərtərəfli keyfiiyətli və statistik məlumatlar veriləcək. Bütün bunlar özündə vizaliberalizasiyanın fəaliyyət planı ilə əlaqədar ilahatları və həmçinin Gürcüstan vətəndaşları üçün vizasız səyahətlə nəzərdə tutulan güzəştləri və imkanları əhatə edir. Məşğələ nəticəsində iştirakçıların lazımi bacarıqları və vərdişləri inkişaf etdiriləcək və onlar özləri vizasız səyahət haqqında müvafiq məlumat axtarmağı bacaracaqlar. Məlumatlandırmanın artırılması məşğələnin içtirakçılarının antiqərb propaqandalarının qurbanı olmamasına kömək edəcək və onlar da əldə edilmiş bilik və məlumatları geniş təbəqələrdə yaya biləcəklər. Məşğələdə həmçinin Covid-19-un Gürcüstan-Avropa Birliyi əlaqələrinə mümkün təsirlərinə diqqət yetirilmişdir.

### Məşğələnin nəticələri

Məşğələdən sonra iştirakçılar Gürcüstan-Avropa Birliyi miqrasiya siyasəti və birbaşa vizasız səyahət ilə əlaqədar keyfiyyətli və statistik məlumatı axtara və analiz edə biləcəklər. Məşğələnin iştirakçıları əldə edilmiş məlumat əsasında cəmiyyətin müxtəlif təbəqələrində anti-qərbyönümlü söyləntilərə və anti-liberal hisslərə qarşı dura biləcəklər. İştirakçıların Avropa Birliyinin miqrasiya siyasəti və vizasız səyahət ilə əlaqədar statistik məlumatları və müvafiq hesabatları işləməsi üçün uyöun bacarıq və vərdişləri inkişaf etdiriləcək. Onlar həmçinin vizasız səyahətlə əlaqədar ölkə miqyasında keçirilın kampaniyalara töhfə verə biləcəklər və bu da Avropa Birliyinə tənzimlənməyən (qeyri-qanuni deyilən) miqrasiyanı azaldacaq və vizasız səyahətin dayandırılması mexanizminin mümkün istifadəsini minimuma endirəcəkdir. Məşğələnin multiplakator təsiri ola bilər, bu isə iştirakçılar tərəfindən əldə etdikləri məlumatı öz icmalarının üzvləri ilə bölüşməsi və geniş yayması deməkdir.

### Mövzunun təsviri

2017-ci ildən biyometrik pasportu olan Gürcüstan vətəndaşlarının Avropa Birliyi və Şenqen ölkələrinə qısamüddətli (90 günə qədər) səyahət üçün vizasız gedə bilmə imkanı var. Avropa Birliyinin bu qərarından əvvəl Gürcüstan üçün vizaliberalizasiya fəaliyyət planı verildi. Bu plan miqrasiya, təhlükəsizlik, ədalət və insan hüquqları sahələrində müxtəlif islahatların həyata keçirilməsini və bu islahatlar nəticəsində əldə olunan nəticələrin davamlılığının təmin olunmasını nəzərdə tutur. Covid-19 pandemiyası başlayana qədər milyona qədər Gürcüstan vətəndaşı Avropa birliyinə və Çenqen ölkələrinə vizasız səyahət hüququndanistifadə etdi. Viza Liberalizasiya Fəaliyyət Planı dörd bloka bölünür və sərhəd idarəçiliyi, bərabərlik, fərdi məlumatların, insan hüquqlarının və əsas azadlıqların qorunması, korrupsiya ilə mübarizə və digər sahələrdə islahatları keçirilməsini əhatə edir. 2014-2017-ci illərdə Gürcüstan qısa müddətli vizaların ləğvi üçün ilkin şərt olan Viza Liberalizasiya Fəaliyyət Planında nəzərdə tutulan islahatları tam həyata keçirdi.

Keçirilən islahatlara baxmayaraq, Avropa Birliyi Gürcüstan tərəfindən keçirilın islahatların geri dönməzliyinə nəzarət etməyə davam edir və illik "Viza dayandırılması mexanizmi" hesabatını dərc edir. Hesabatda həm əldə olunmuş nəticələr, həm də əsasən Avropa Birliyi və Şenqen bölgəsi ölkələrində olan Gürcüstan vətəndaşlarının mütəşəkkil cinayətkar qrupları və əsassız sığınacaq axtaranlar ilə əlaqədar problemlər təqdim olunmuşdur. Qeyd olunmalıdır ki, Avropa Birliyi və Şenqen ölkələrindən sığınacaq istəyən vətəndaşların sayı getdikcə artır. 2019-cu ildə bu rəqəm 21.570 Gürcstan vətəndaşını təşkil edirdi, son doqquz ildə isə üç dəfə artmışdır. Müvafiq olaraq, vizasız səyahət daimi deyil və Avropa Birliyi tərəfindən vizasız səyahətin dayandırılması mexanizmi ilə nəzərdə tutulan şərtlərin pozulmasını nəzərə alaraq ona yenidən baxılması mümkündür.

## Müzakirə olunacaq əsas mövzular

- Miqrasiya siyasəti kontekstində Gürcüstan-Avropa Birliyi münasibətləri;
- Viza asanlaşdırma müqaviləsi;
- Readmissiya müqaviləsi;
- Viza Liberalizasiya Fəaliyyət Planı;
- Qısamüddətli vizaların ləğvi və bunun praktik nəticələri;
- Əmək miqrasiyası;
- Sirkular miqrasiya;
- Sığınacaq axtaranlarla əlaqədar problemlər;
- Vizasız səyahətin dayandırılma mexanizmi;
- COVID-19-un Avropa Birliyi-Gürcüstan miqrasiya siyasəti və praktikasına təsiri;
- Statistika və Avropa Birliyinin hesabatları.

## Faydalı mənbələr


1. Avropa Birliyi sərhədd və sahil təhlükəsizlik agentliyi www.frontex.europa.eu
2. Avropa Komissiyası Daxili İşlər və Miqrasiya Müdirliyi https://ec.europa.eu/home-affairs/
3. Avropa Birliyi sığınacaq axtaranlara dəstək ofisi https://www.easo.europa.eu/
4. Miqrasiya Məsələləri üzrə Hökumət Komissiyası http://migration.commission.ge/index.php?article_id=59&clang=0
5. Gürcüstanın 2016- 2020-ci illər miqrasiya strategiyası http://migration.commission.ge/files/ms_matsne_geo_06.08.18.pdf
6. Viza Liberalizasiya Fəaliyyət Planı http://migration.commission.ge/files/savizo-liberalizaciis-samoqmedo-gegma_qartulad.pdf
7. Avropa Birliyi ilə Gürcüstan arasında viza rejiminin sadələşdirilməsinə dair razılaşma http://migration.commission.ge/files/1.pdf
8. Gürcüstan və Avropa Birliyi arasında icazəsiz şəxslərin readmissiyası haqqında razılaşma http://migration.commission.ge/files/._2.pdf
9. Avropa Komissiyasının Viza liberallaşmasının dayandırılması mexanizmi haqqında üçüncü hesabatı (10/07/2020) https://bit.ly/2OGzgo7
10. Avropa komissiyasının viza dayandırılması mexanizmi haqqındamexanizminin köməkçi sədədi https://bit.ly/2ZPvwqO
11. "Vizasız səyahət üçün nəyə ehtiyacımız olacaq – səyahət əvvəl bilməli olduğumuz hər şey" https://bit.ly/39R52s3

# 3.3. Avropa Birliyi ilə təhsil proqramları

### Məşğələnin məqsədi

Məşğələnin məqsədi Erasmus layihələri çərçivəsində hansı imkanların mövcud olduğunu, maliyyələşdirilmiş təqaüdlə təhsil almağın, müxtəlif fəllıqlarda iştirak etməyin necə mümkün olduğunu auditoriyaya çatdırmaqdır. Məşğələnin gedişatında dinləyicilər həmçinin aplikasiyaları necə dolduracaqları, maliyyələşdirilmiş iştirakçılar arasında necə daxil ola biləcəkləri barədə daxili prosedurlarla tanış olacaqlar və erasmus layihələrində iştirak etməyin nə dərəcədə müsbət tərəflərinin olduğunu analiz edəcəklər.

### Məşğələnin nəticələri

Məşğələnin sonunda iştirakçılar: ESC (European Solidarity Corp) vakansiyalarını axtara və aplikasiyaları özlər doldura biləcəklər; universitetin dövri mübadilə proqramları çərçivəsində kimə müraciət edəcəklərini və hansı prosedurları keçmıli olduqlarını biləcəklər; Universiteti bitirdikdən sonra magistratura proqramları vasitəsilə xaricə necə gedtməli olduqları haqqında öynəcəklər; Erasmus proqramları haqqında soruşaq üçün və kömək üçün kimə müraciət etməli olduqlarını biləcəklər; Motivasiya məktubu və CV tərtib etməyi biləcəklər; Hər bir proqramda iştirak etmək üçün hansı əsas kriteriyalara cavab verməli olduqlarını biləcəklər.

### Mövzunun təsviri

Erasmus +, təhsil, məşğələ, gənclik və idman sahələrində layihələr həyata keçirən Avropa Birliyinin qrant proqramıdır. Məşğələ zamanı 3 əsas proqrama toxunacağam:

Beynəlxalq Kredit yerdəyişmə (International Credit Mobility - ICM), ali təhsil tələbələri və akademik / inzibati heyəti üçün qısa müddətli mübadilə proqramıdır. Mübadilə proqramları Gürcüstan və Avropa (proqram ölkələri) universitetləri arasında imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilir. Tələbə beynəlxalq kredit yerdəyişməni həyata keçirə bilmək üçün bakalavr, magistratura, doktorantura tələbəsi olmalıdır.

Avropa Universitetlərində tam magistr proqramları - Birgə magistr proqramları - bir neçə Avropa ölkələrinin universitetləri tərəfindən birgə hazırlanan proqramlar. Ərizəçi, öz ölkəsində və ya başqa bir ölkədə bakalavr proqramını bitirdikdən sonra müstəqil olaraq proqramı seçir. Ərizəçi fərdi olaraq birbaşa proqramı əlaqələndirən universitetə təqdim edir. Seçilmiş namizəd bir neçə kriteriyaya əsasən seçilir.

ESC (European Solidarity Corp.) - Avropa Həmrəylik Korpusu - Proqram həmrəyliyi könüllülük yolu ilə bir dəyər kimi təbliğ etmək, gənclərin müxtəlif fəaliyyətlərə cəlb olunmasını artırmaq məqsədi daşıyır. Layihə çərçivəsində seçilmiş iştirakçı 2 aydan 1 ilədək müddətə xaricə gedir, əvvəlcədən seçilmiş bir təşkilatda könüllü olur və onu ən çox maraqlandıran sahədə təcrübə qazanır.

## Müzakirə ediləcək əsas mövzular

- Erasmus nə deməkdir və Erasmus layihələri çərçivəsində hansı imkanlar mövcuddur;
- 3 Proqram Müzakirələri: Semestr Mübadiləsi, Magistr Proqramı, Avropa Həmrəylik Korpusu;
- Ərizəni doldurana qədər məsləhətlər və nəzərə alınmalı məsələlər.

## Faydalı mənbələr

1. Erasmus + Gürcüstanın milli ofisi. http://erasmusplus.org.ge/
2. Magistratura proqramlarının kataloqu. https://eacea.ec.europa.eu/erasmus-plus/library/emjmd-catalogue_en
3. Erasmus tələbələri birliyinin FB səhifəsi. https://www.facebook.com/ESN.Tbilisi.ISU/
4. ESN Tbilisinin Youtube kanalı. https://www.youtube.com/channel/UCzRSAPhwKCottmUnueHOcDQ
5. ESC haqqında məlumat https://europa.eu/youth/solidarity/faq_en



# ƏLAVƏ 1:

# MƏŞĞƏLƏ DÖVRÜ

- İçtirakçılar tərəfindən məşğələnin qiymətləndirilməsi
- İştirakçıların və kursun qiymətləndirilməsi
- Potensial dəyişikliklərin müəyyənlə dirilmə

- İştirakçıların ehtiyaclarının müəyyən edilməsi
- Təşkilatın məqsədlərinin müəyyən edilməsi
- Tövsiyyə olunan məzmunun müəyyən edilməsi
- Optimal variantın seçilməsi




- Dinamik məşğələnin keçirilməsi
- İştirakçıların tələblərinə uyöunlaşdırılması

- Məşğələnin ümumi məzmununun müəyyən edilməsi
- Hər bir sahənin məzmununun müəyyən edilməsi
- Fərdi sesiyaların bölünməsi
- Metodların seçilməsi
- Materialın hazırlanması



# ƏLAVƏ 2:

# MƏŞĞƏLƏNIN QIYMƏTLƏNDIRILMƏ FORMASI

# Qiymətləndirmə forması

**Məşğələnin mövzusu**
**Məşğələnin yeri**
**Məşğələnin tarixi**
**Təlimçinin adı**

Məşğələnin yüksək standartlarını saxlmaq üçün sizin qiymətləndirməniz bizim üçün mühümdür. Xahiş edirik, bir neçə dəqiqənizi ayırın və aşağıda verilən suallara cavab verin. Aşağıda verilən skalada hansısa rəqəmi dairələyin.

## Məzmun hissəsi

### 1.material aydın və təşkiltalanmış şəkildə təqdim olunmuşdu

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 2. Məşğələ qoyulmuş məqsədlər və məsələlərə uyğunlaşırdı

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 3. Məşğələdə iştirak etmə gözləntilərimə nail oldum

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 4. Məşğələ nəticəsində məsələ (adı) haqqında biliyim artdı

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 5. Əldə olunan məlumat gələcək işlərimdə də işimə yarayacaq

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

## Təlimçi

### 1. Təlimçi yaxşı hazırlaşmışdı

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 2. Təlimçi mövzunu başa düşülən, aydın şəkildə təqdim edirdi

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 3. Təlimçi sualları qənaətbəxş cavablandırırdı

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 4. Təlimçi iştirakçıların fəal diskusiyalarda iştirak etməsini təmin edirdi

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

## Təşkilati hissə

### 1. Yıöıncaq lazımi bütün inventarlarla yaxşı təşkil olunmuşdu

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 2. Məşəğələ məkanı rahat idi

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

### 3. Məşğələ müddəti və fasilə balanslaşdırılmışdı

| | | | | |
|---|---|---|---|---|
| **1** tamamilə razılaşmıram | **2** | **3** | **4** | **5** tamamilə razılaşıram |

**Məşğələdə ən çox nə xoşunuza gəldi?**

-----------------------------------------------------------------------------------------------------------------------------------

**Məşğələni necə təkmilləşdirmək olar?**

-----------------------------------------------------------------------------------------------------------------------------------

**Məşğələdən əldə etdiyiniz biliyi gələcəkdə necə istifadə edəcəksiniz?**

-----------------------------------------------------------------------------------------------------------------------------------

**Başqa əlavə şərhləriniz varmı?**

-----------------------------------------------------------------------------------------------------------------------------------



## ƏLAVƏ 3:

# TƏLIMÇILƏR ÜÇÜN TƏLIMAT

### Təlimçilər məşğələni planlaşdırarkən və apararkən aşağıdakı halları nəzərə almalıdırlar

- Təqdim olunan materialda nəzəri və praktik məlumatların balanslı şəkildə əks olunduğuna diqqət yetirin;
- Məşğələni planlaşdırarkən və keçirərkən iştirakçıların fərdi ehtiyac və maraqlarını nəzərə alın;
- Planlaşdırılmış sessiyaların iştirakçıların nəticə əldə etməsinə kömək etdiyindən əmin olun. Bunun üçün əvvəlcədən təlim iştirakçılarının kim olduğunu və ehtiyac və maraqlarının nədən ibarət olduğunu öyrənin;
- Təlimin planlaşdırılmasında qarışıq növlərdən istifadə edin, bunlara aşağıdakılar daxildir: giriş, qaydalarla tanışlıq, geribildirim, yekun hissə;
- Məlumatı çatdırmaq üçün verilən zamanı aşmamaq məqsədilə materialı real sayda edin;
- İştirakçılar tərəfindən çətin başa düşülməsi təqdirdə bəzi mövzuları keçməməyə və ya bəzi mövzulara daha çox vaxt ayırmağahazər olun;
- Məşğələnin daha effektiv alınması üçün məlumatların çatdırılma metodlarını güclü tərəflərinizlə uyğunlaşdırın;
- İştirakçıların fərqli öyrənmə tərzlərini nəzərə almaq və müvafiq olaraq onların məşğələ zamanı fəal iştirak etmələrini təmin etmək üşün məlumat çatdırmağın qarışıq metodlardan istifadə edin;
- İştirakçıları həqiqətən ehtiyac duyduqları və ya tələb etdikləri əlavə materiallarla təmin edin;
- Həm məşğələ zamanı, həm də təqdim olunan materiallarda sadə və başa düşülən dildən istifadə edin;
- Həmişə məşğələnin məqsədini xatırlayın və əsas mövzulardan kənara çıxmamağa çalışın. Lakin bəzi mövzuların və ya çatdırılma tərzinin iştirakçılarda işləmədiyini görsəniz, çevik olun və dəyişiklik etməyə hazır olun.



# ƏLAVƏ 4:

# MƏŞĞƏLƏNIN ƏLAVƏ MATERIALLARI

# 1.1. Gürcüstanın xarici siyasətinin avropalaşması: problemlər və perspektivlər

### Fəaliyyət 1: giriş hissə - Gürcüstanın Avropaya inteqrasiyası haqqında ümumi diskussiya

Məşğələnin birinci hissəsində iştirakçılar Gürcüstanın Avropaya inteqrasiya prosesi, məqsədi və ölkənin xarici siyasətində onun əhəmiyyəti haqqında əsas məlumat alacaqlar. Daha konkret olaraq, iştirakçılar Gürcüstan və Avropa Birliyi arasındakı münasibətlərin illər ərzindəki dinamikası, o cümlədən bağlanan vacib müqavilələr (Assosiasiya müqaviləsi və Dərin və Hərtərəfli Sərbəst Ticarət müqaviləsi), Gürcüstanın Avropa Birliyi ilə əməkdaşlıq prosesində atdığı addımlar və əməkdaşlığın faydaları haqqında məlumat əldə edəcəklər. Qeyd olunan hissədə iştirakçılar Gürcüstan cəmiyyətinin Avropa Birliyinə olan münasibətləri ilə də tanış olacaqlar.

### Fəaliyyət 2: Məlumat sessiyası - Gürcüstanın avropalaşma sahəsindəki siyasi problemləri və perspektivləri

Bu hissədə Gürcüstanın avropalaşma prosesində qarşılaşdığı çətinliklər müzakirə ediləcək. İctimai səviyyədəki problemlərə xüsusi diqqət yetiriləcəkdir, çünki Avropaya inteqrasiya prosesində Gürcüstan cəmiyyətinin Avropa dəyərləri ilə artan yorğunluğu hiss olunur. Bu məsələni müzakirə edərkən xalqın Avropaya inteqrasiya və avropalaşmaya münasibətinin statistikası (Qafqaz Barometri, NDI və IRI sorğuları) köməkçi material kimi analiz ediləcəkdir. Diqqət yetirilməli olan digər vacib problem, bu cəmiyyətlər arasında qarşılıqlı əlaqə və bilik çatışmazlığı səbəbindən Gürcüstan və Avropa cəmiyyətləri arasındakı anlaşılmazlıqdır.

Problemlərdən, iştirakçılar bu hissədə Gürcüstanın avropalaşma perspektivləri haqqında məlumat alacaqlar. Ölkə bir sıra problemlərlə üzləşsə də, digər postsovet dövlətlərinə nisbətən o Avropaya inteqrasiyada daha aktivdir və Avropa Birliyinin Şərq Tərəfdaşlığı proqramı çərçivəsində qravitasiya mövqeyini saxlamağa çalışır.

### Avropaya inteqrasiya üçün atılan addımlar

Ölkənin avropalaşma sahəsində qarşılaşdığı çətinliklər və perspektivlər müzakirə edildikdən sonra iştirakçılara ölkənin bu günə qədər Avropaya inteqrasiya istiqamətində atdığı addımlar haqqında məlumat veriləcəkdir. Xüsusən də, iştirakçılara Avropa Birliyi və Gürcüstan arasında əməkdaşlıq çərçivəsində bağlanmış ikitərəfli və çoxtərəfli siyasi müqavilələr, Gürcüstanın Avropa Birliyi ilə ticarət istiqamətində atdığı addımlar, vizasız səyahət və Gürcüstan əhalisi arasında Avropa Birliyi ilə əlaqədar şüurun artırılması üçün atılan addımlar haqqında məlumat veriləcəkdir. İştirakçılara Gürcüstanın Avropaya inteqrasiya prosesi çərçivəsində yaxşı idarəetmə və demokratikləşmə istiqamətində apardığı islahatlar haqqında da məlumat çatdırılacaqdır.

### Avropa Birliyinəə üzv ölkələr tərəfindən görülən Gürcüstanın Avropaya inteqrasiya perspektivləri

Məşğələnin qeyd olunan hissəsində iştirakçılar Gürcüstanın Avropaya inteqrasiya perspektivlərini başqa mövqedən görmə və Avropa Birliyinə üzv dövlətlərinin bu mövzuda olan görüşü ilə tanış olma imkanı qazanacaqlar. xüsusən də, Gürcüstan və onun Avropaya inteqrasiyası və avropalaşması haqqında Avropa Birliyinə üzv olan ölkələrin görüşü necədir, onların qavrayışı və gözləntiləri nədir, gürcü tərəfin görüşü ilə üst-üstə düşürmü. Bənzər diskusiyalar mühümdür, çünki Gürcüstanda Avropa reallığı və Avropa tərəfinin bu ölkə haqqında təsəvvürləri barədə çox az məlumat mövcuddur.

### Gürcüstanın Avropa inteqrasiya modelləri

Bu hissə nəzəri elementlərlə yanaşı praktik elementləri də əhatə edir, çünki iştirakçılar Gürcüstanın Avropaya inteqrasiyasının müxtəlif modelləri ilə tanış olacaq və müqayisə əsasında bu modellər arasındakı oxşar və fərqli cəhətləri müzakirə edə biləcəklər. İştirakçılar, Gürcüstan üçün hansı modelin daha təsirli olduğunu müzakirə etmək imkanı qazanacaqlar. Əsas diqqət iki model üzərində olacaq: regional və fərdi inteqrasiya, bu hissədə bu iki modelin müqayisəli müzakirə olunacaqdır.

### Fəaliyyət 3: Yekun hissə- qrup işi

Məşğələnin son hissəsində iştirakçılar bir neçə kiçik qruplara bölünəcəklər, bütün məşğələ ərzində əldə edilmiş məlumatı yekunlaşdıracaqlar və əsas mövzuları seçərək ayıracaqlar. iştirakçılara həmçinin ölkənin Avropaya inteqrasiya prossesi, əldə etdiyi nailiyyətlər və problemlər haqqında daha çox məlumat əldə edə biləcəkləri əlavə onlayn mənbələr veriləcək.

## 1.2. Avropa Birliyinin Qonşuluq siyasəti və şərq tərəfdaşlığı: Bu formatlar Gürcüstan üçün nə deməkdir?

### Fəaliyyət 1: Avropa Birliyinin qonşuluq siyasəti haqqında diskussiya

Məşğələnin Bu hissəsində iştirakçılara məşğələnin məsədləri, quruluşu və nətcələri haqqında məlumat veriləcək. Giriş hissədə Avropa birliyinin qonşuluq siyasəti, onun işlənmə taixi, qeopolitik məqsədləri və əhəmiyyəti müzakirə olunacaq. Məşğələnin qeyd olunan hissəsi çərçivəsində iştirakçılara Gürcüstan üçün Avropanın qonşuluq siyasəti formatında olmağın nə demək olduğu izah olunacaq.

### Fəaliyyət 2: Məlumat sessiyası / diskussiya - “Şərq tərəfdaşlığı”

Məşğələnin qeyd olunan hissəsi çərçivəsində Avropa birliyinin Şərq tərəfdaşlığı formatı müzakirə olunacaq. Xüsusən, qeyd olunan formatın işlənməsinə hansı siyasi prosseslər imkan yaratdı, həmçinin təşəbbüskarlar Avropa Birliyinə üzv olan hansı dövlətlərdir. Bununla yanaşı, formatın nə demək olduğu, Gürcüstanla birlikdə hansı dövlətlərin formatın iştirakçısı olduğu və bu formatı yaratmağın məqsədinin nə olduğu haqqında müzakirələr aparılacaqdır. Məşğələnin bu hissəsində Gürcüstanın Şərq Tərəfdaşlığı formatında iştirakının siyasi, iqtisadi və icmalararası əlaqələrin qurulması baxımından nə demək olduğu da nəzərdən keçiriləcəkdir.

### Fəaliyyət 3: Məlumat sessiyası / diskussiya - “şərq tərəfdaşlığı formatının gələcəyi”

Məşğələnin bu hissəsində Şərq Tərəfdaşlığı Sammitləri və formatın inkişaf mərhələləri, eyni zamanda 2021-ci il mart ayının Şərq Tərəfdaşlığı Sammiti və perspektivləri müzakirə edəcəkdir. Təlim iştirakçılarına Şərq Tərəfdaşlığı ölkələri arasında olan fərqlər izah olunacaq, xüsusilə müzakirələr Gürcüstan, Moldova, Ukraynanın siyasi istəkləri (Eap +) və Avropa Birliyinə üzvlük istiqamətində atılan addımlarla əlaqədar olacaq. Nəhayət, məşğələnin qeyd olunan hissəsi Avropa Biriliyi tərəfindən Şərq Tərəfdaşlığı ölkələrinə, xüsusən də Gürcüstana COVID-19 pandemiyasına qarşı mübarizədə verdiyi maliyyə dəstəyini nəzərdən keçirir.

### Fəaliyyət 4: Praktik tapşırıq

Qeyd olunan komponent çərçivəsində  Şərq tərəfdaşlığı təşəbbüsünün əsas istiqamətlərinin öyrənilməsinə və analiz edilməsinə kömək edən praktik tapşırıq təqdim olunacaq. Bu istiqamətlər aşağıdakılardır: (1) iqtisadi inkişaf və bazar imkanlari; (2) qurumların gücləndirilməsi və yaxşı idarəetmə; (3) əlaqələrin dərinləşdirilməsi, enerjieffektliyi, ətraf – mühit və iqlim dəyişiklikləri; (4) Yerdəyişmə və xalqlararası unsiyyətlər. İlk növbədə, iştirakçılara qeyd olunan istiqamətlər haqqında məlumat veriləcək, sonra isə iştirakçılar qruplara bölünəcək (iştirakçıların sayına uyğun olaraq) və onlara tapşərəq verilcək. Tapşırıq çərçivəsində onlar Gürcüstan tərəfindən həyata keçirilmiş islahatları təşəbbüsün əsas istiqamətləri ilə uyğunlaşdırmalıdırlar.

### Fəaliyyət 5: Yekun hissə / yekunlaşdırma

Son hissədə iştirakçılar əlavə məlumat üçün təlimçiyə sual vermək imkanı əldə edəcəklər. Sonra məşğələ zamanı əldə edilən məlumatlar yekunlaşdırılacaq. Məşğələnin sonunda iştirakçılara faydalı mənbələr, xüsusilə Şərq Tərəfdaşlığı formatının gürcü gənclərinə təqdim etdiyi imkanlar haqqında məlumatlar veriləcəkdir.

## 2.1. Avropa Siyasət kontekstində azlıqların hüquqları və öhdəlikləri

### Giriş: Azlıqların tərifi

Sessiya mühazirə və diskussiya hissələrini əhatə edir

Etnik və milli azlıqların fərqli tərifləri mövcuddur. Məşğələnin bu hissəsində İştirakçılar azlıqlar anlayışının beynəlxalq hüquqi definisiyası ilə tanış olacaqlar, xüsusən, etnik və milli azlıq anlayışlarının necə müəyyən olduğu, bu anlayışlar arasında nə kimi fərqlərin olduğu, azlıqların hüquqlarını qoruyan və inteqrasiyasını təmin edən hansı modellərin mövcud olduğu haqqında məlumat əldə edəcəklər. Modellər müxtəlif ölkələrin təcrübələrini və siyasi ənənələrini göstərməklə müzakirə olunacaq. fərqli təriflərin mövcud olmasına baxmayaraq, dövlətlərin əksəriyyəti tərəfindən 1975-ci ildə irəli sürülən versiya qəbul olunmuşdur, bu versiya aşağıdakı kimi formalaşdırılmışdır: ”azlıqlar dövlətin qalan əhalisi ilə müqayisədə sayca azlıq təşkil edən və qeyri-dominant vəziyyətdə olan qruplardır. Üzvləri -dövlətin vətəndaşları - digər əhalidən fərqli milli, dini və linqvistik xüsusiyyətlərinə görə fərqlənirlər. Öz mədəniyyətlərinin, ənənələrinin, dinlərinin və dillərinin qorunub saxlanılması məqsədilə dolayısıyla həmrəylik ifadə edirlər.”

### Gürcüstanda azlıqlar

Məşğələnin bu hissəsi Gürcüstanda etnik və milli azlıqların vəziyyətinə toxunacaq. Xüsusən, ətraflı statistik məlumatları və yerləşmə sahəsi necədir. Həmçinin, dövlət tərəfindən azlıqlar necə qavranılır və o azlıqlar siyasətinin hansı beynəlxalq modelinə yaxındır. Gürcüstanın mövcud qanunvericiliyi "azlıq" anlayışını izah etmir. Azlıqların iteqrasiya siyasətini müəyyənləşdirən əsas sənəd - Tolerantlıq və Vətəndaş inteqrasiyası üzrə milli konsepsiya göstərir ki, azlıqlar onlara azlıq kimi münasibət edib edilməməsini özləri seçmə hüquqna malikdirlər. Yəni, mövcud yanaşmaya görə, Gürcüstanda sayına və yaşama müddətinə baxmayaraq, etnik gürcülərdən başqa özünü azlıq qrupuna aid edən bütün insanlar azlıq hesab edilir.

## Avropa Azlıq Siyasəti İdarəetmə Mexanizmləri

Sessiya mühazirə və diskussiya hissələrini əhatə edir

Məşğələnin bu hissəsində əsas diqqət beynəlxalq Avropa mexanizmlərinin mahiyyətinə və onların istifadəsinə yönəldiləcək. Avropa Şurasının, ATƏT-in və Avropa birliyinin müvafiq qaydaları ətraflı çəkildə təqdim ediləcəkdir. Müzakirə ediləcək mexanizmlər arasında Avropa Şurası milli azlıqların qorunmasının çərçivə-konvensiyası, Regional və Avropa azlıq dilləri xartiyası, azlıqların qorunması və inteqrasiyası sahəsində ATƏT-in tematik tövsiyyələri yer alır. Hər bir beynəlxalq mexanizmin əsas məqsədləri və mahiyyəti, üzv olan ölkələrdə bu məqsədləri praktiki olaraq həyata keçirilməsini təmin edən praktik mərhələlər və qaydalar müzakirə olunacaqdır.

Bu mərhələdə Gürcüstan yalnız Azlıqların Müdafiəsi üzrə Avropa Çərçivə Konvensiyasının həyata keçirilməsində iştirak edir. Konvensiya 1995-ci ildə Avropa Şurası tərəfindən qəbul edilmişdir. O qanuni öhdəliklər qoyan və ümumilikdə milli azlıqların qorunması ilə məşğul olan çoxşaxəli bir sənəddir. Konvensiyanın məqsədi imza atan dövlətlərin ərazilərində yaşayan milli azlıqların hüquqlarını qorumaqdır. Konvensiya, eyni zamanda, milli azlıqların öz mədəniyyətlərini və kimliklərini qoruyub-inkişaf etdirmələrini təmin edəcək şərtlər yaratmaqla tam və həqiqi bərabərliyə imkan yaratmaq məqsədini daşıyır. Konvensiya tərəfindən təmin edilən əsas prinsiplər bunlardır: azlıqların siyasi və sosial iştirakı, dinc toplaşma azadlığı, birliklər yaratma azadlığı, ifadə azadlığı, fikir, vicdan və din azadlığı, mediyanın əlçatanlığı, təhsil hüququ və s.

Doğrudur, Avropa Azlıq Dilləri XartiyasıGürcüstan tərəfindən imzalanmayıb, lakin Avropa Şurası diplomatik nümayəndəliyi və Strasburqdakı müvafiq Katiblik vasitəsi ilə vaxtında bir ratifikasiya sənədi hazırlamaq üçün Gürcüstan hökuməti və müxtəlif tədqiqat mərkəzləri ilə fəal əməkdaşlıq edir.

Bu iki Avropa Şurası sənədlərindən başqa, ATƏT çərçivəsində mövcud olan öhdəliklər də mühüm beynəlxalq mexanizmdir. Xüsusən, ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarlığının (HCNM) mandatı. Bu qurum ATƏT-də 1992-ci ildə yaradılmışdır, diiplomatik malikdir və münaqişələrin qarşısını alma və erkən xəbərdarlıq etmə istiqamətində işləyir. ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarlığının tövsiyələri dövlətlər üçün qanuni olaraq məcburi deyildir və onların icrasına nəzarət edən bir sistem mövcud deyil. Lakin olar siyasi baxımdan ATƏT-ə üzv olan ölkələr üçün məcburidir və Avropa Birliyinə üzv olmaq istəyən dövlətlər üçün mühüm normativ bir dayaq rolunu oynayır.

## Gürcüstan tərəfindən qəbul olunmuş yerli hüquqi öhdəliklər

Sessiya mühazirə və diskussiya hissələrini əhatə edir

Bu hissədə azlıqların qorunması və inteqrasiyası istiqamətində Gürcüstanın qəbul etdiyi yerli öhdəliklər və onları həyata keçirən mexanizmlər müzakirə olunacaq. Xüsusən, hansı növ hesabat mövcuddur və bu prossesdə yerli, gürcü vətəndaş cəmiyyətinin təşkilatlarının rolu və funksiyası necədir.

Gürcüsyanın daxili qanunvericiliyi və hər növ hüquqi normaları dövlətə etnik azlıqlarla münasibətdə konkret məcburiyyətlər təyin edir. Azlıqlar siyasətinin əsas tənzimləyici sənədi 2009-cu ildən bəri fəaliyyət göstərən əmin-amanlıq və mülki inteqrasiya milli konsepsiyası və fəaliyyət planıdır. Konsepsiyanın həyata keçirilməsindən məsul olan dövlət strukturu Barışıq və Mülki Bərabərlik məsələləri üzrə Gürcüstan Dövlət Nazir Aparatıdır. Konsepsiya bərabərlik prinsipləri və “daha çox rəngarənglik, daha çox inteqrasiya” mövqeyinə dayanır. Sənədin ümumi məqsədi mədəni dəyərlərin və cəmiyyətin hər bir üzvünün kimliyinin qorunmasıdır.

Strategiya sənədi 4 əsas istiqamətlərə ayrılır: mülki və siyasi həyatda bərabər şəkildə və mükəmməl iştirak; eyni sosial və iqtiasdi şərtlərin və imkanların yaradılması; keyfiyyətli təhsilin əlçatanlığının təmin olunması və dövlət dili bilgilərinin mükəmməlləşdirilməsi; etnik azlıqların mədəniyyətinin qorunması və tolerant mühitin təminatı. Strategiyanın fəaliyyət planın ilə 5 illik müddətdə konkret fəaliyyət planları və onları yeritməklə məsul olan institutlar qeyd olunmuşdur. Strategiya, həmçinin, müvafiq dəyərləndirmə və hesabat mexanizmlərini əhatə edən illik fəaliyyət planını tərtib edir. Strategiya çoxluqla daha çox münasibət və interasksiyaya şərait yaradır. Çünki mülki inteqrasiya cəmiyyətin tam olaraq, onun təkrib hissəsi olan üzvlərin qoşulmasını nəzərdə tutur. Strategiyaya əsasən hökumət kiçik və zəif etnik azlıqların təhsil və hüquqi maraqlarını qorumaq, həmçinin onlara ali təhsil müəssisələrində onlarına ana dillərinin öyrədilməsinə şərait yaratmalıdır.

Məşğələ zamanı qeyd olunan fəaliyyətlər planı və strategiyanın həyatda reallaşdırılması ilə bağlı çətinliklər təqdim olunacaqdır.

### Məşğələlərin yekunu

Məşğələlərin yekun hissəsində iştirakçılara azlıqlarla bağlı faydalı resurslar haqqında ətraflı məlumat veriləcəkdir. Həmçinin, etnik azlıqlarla bağlı Gürcüstanda həm dövlət, həm də tərəflər tərəfindən mövcud olan mövqelər yekunlaşdırılacaq. Eyni zamanda, Avropa Siyasəti baxımından Gürcüstanda azlıqların vəziyyəti analiz olunacaqdır.

## 3.1. Avropa Birliyi ilə sərbəst ticarət Fəaliyyət

### Fəaliyyət 1: Ticarət siyasəti haqqında diskussiya Fəaliyyət
### Fəaliyyət 2: Məlimat sessiyası / açıqlama- izahat metodu

Verilmiş mövzu haqqında müzakirəyə əsaslanır. Təlimçi məlumat verərkən verilmiş mövzun çərçivəsində ətraflı müzakirə olunan konkret misallar gətirir.

Bu gün üçün Gürcüstanda Dünyanın ən liberal ticarət siyasətlərindən biri mövcuddur. Bu isə sadələşdirilmiş xarici ticarət rejimlərini və gömrük prsedurlarını, aşağı idxal tariflərini və minimal qeyri-tarif qaydasını nəzərdə tutur: İxracata ƏDV və aksiz vergisi tətbiq olunmur (təyinat ölkəsində ödənilir); 0% idxal vergisi rüsumu məhsulların təqribən 80% -nə aiddir, qalan hissəsi 5% və 12% adval rüsum ilə yanaşı xüsusi rüsum (alkoqol və avtomobillər) ilə vergiyə cəlb edilir.

### Ticarət müqavilələri və rejimləri

**Adi (əsas) :**

- Gürcüstanın ikitərəfli və çoxtərəfli müqavilələrə əsaslanan prevensial ticarət rejimi olmayan ölkələr;
- Beynəlxalq təşkilata üzv olmağa əsaslanan prevensial ticarət əlaqələri.

**Prevensial:**

- Öncül təminat rejimi - Gürcüstanın ticarət tərəfdaşlarının əksəriyyəti Dünya Ticarət Təşkilatının (ÜTT) üzvləridir və nəticədə ÜTT-yə üzv ölkələrlə (164 ölkə) ticarət əlaqələri öncül təminat rejiminə (MFN) əsaslanır. Bu, ÜTT üzvü olan ölkələr üçün fərqli aşağı tarifləri təmin edir.

- Ümumiləşdirilimiş prevensiyalar sistemi (GSP) - Ümumiləşdirilişmi prevensiyalar sisteminin əsas mahiyyəti iqtisadi cəhətdən inkişaf etmiş ölkələr tərəfindən iqtisadi cəhətdən nisbətən zəif inkişaf etmiş ölkələrin ixracatının inkişafına kömək etməkdir. Bu məqsədlə inkişaf etmiş ölkələr ümumiləşdirilmiş prevensiyalar sistemindən faydalananlara bir tərəfli olaraq (qarşılıqlı güzəşt olmadan) xarici ticarətdə müəyyən güzəştlər edirlər. 2005-ci ilin 1 iyulundan Avropa Birliyinin GPS sxeminin əlavə prevensiyalar, yəni prevensiyaların ümumi sistemi "GSP+" fəaliyyətə başladı. Bu sistem ticarət tariflərini birtərəfli olaraq azaltmaq və ya ləğv etmək imkanı verir. Bu o deməkdir ki, gürcü mənşəli 7200-ə qədər məhsul GPS ölkələrinə sıfır gömrük rüsumu ilə daxil edilir.
- Sərbəst ticarət rejimləri: (MDB ölkələri ilə (çoxtərəfli), Türkiyə ilə (ikitərəfli), EFTA (Norveç, İslandiya, İsveçrə və Lixtenşteyn) - mal ticarətini əhatə edir, DCFTA, Çin və Honq-Konqla) - tarif maneələri olmadan ticarət, müxtəlif bürokratiya tariflərinin ləğv edilməsi (qeyri-tarif maneələrindən başqa).

## Dərin və Hərtərəfli Sərbəst ticarət məkanı - DCFTA

Dərin və Hərtərəfli Sərbəst Ticarət Məkanı (DCFTA) nə deməkdir? Dərin və Hərtərəfli Sərbəst Ticarət Məkanı (DCFTA) ölkəni güzəştli ticarət rejiminə keçirir və uyğunlaşdırılmış qaydalara əsaslanaraq Gürcüstan ilə Avropa Birliyi arasında bazara əlçatanlığı artırmaq imkanı verir. Xüsusən də, DCFTA gürcü sahibkarlara öz məhsulunu tarif maneələri və kvotaları olmadan dünyann ən böyük bazarlarından biri olan Avropa Birliyinin vahid bazarında yerləşdirmə imkanı verir.

## Mal ticarət şərtləri

- **İxracat:** Tərəflərdən heç birinin malların ixracına görə gömrük və ya digər ekvivalent vergilər tətbiq etmək və ya saxlamaq hüququ yoxdur.
- **İdxal:**

Gürcüstanda: Müqavilə qüvvəyə mindiyi anda Avropa mənşəli malların idxalına görə gömrük vergiləri ləğv edildi.

Avropa Birliyində: Müqavilə qüvvəyə mindiyi anda Gürcüstan mənşəli malların idxalına gğrə gömrük vergisi ləğv olundu, bununla yanaşı, Gürcüstandan Avropaya idxal edilən məhsulun bir hissəsi üçün aşağıdakı tədbirlər müəyyən edildi:

- **Sarımsaq üçün kvota (illik idxal kvotası - 220 ton);**
- **Avropa Birliyinə "giriş qiyməti" (entey price - and valorem free)** - 28 növ kənd təsərrüfatı məhsuluna (ümumi məhsulun 0,3%) Avropa Birliyinə "giriş qiyməti" tətbiq edildi, bu da məhsulun idxalına minimal qiymət həddinin tətbiq edilməsi deməkdir. Müqavilə qüvvəyə mindiyi andan giriş qiymətinin advalur komponenti (faiz gömrük rüsumu) ləğv edildi və yalnız xüsusi gömrük vergisi qaldı. Gürcüstanda istehsal olunan məhsulların faktura qiyməti Avropa Birliyinə idxal edildikdə Avropa Birliyi tərəfindən müəyyən edilmiş sabit qiymətdən aşağı olarsa, idxalçı xüsusi gömrük rüsumu ödəyəcək, lakin bərabər və ya daha yüksək olarsa, artıq xüsusi gömrük rüsumu ödəməli olmayacaq;
- **Saxtalaşdırma əleyhinə mexanizm (anti-circumvention mechanism)** - Kənd təsərrüfatı və qida emalı məhsulunun 277 növü (ümumi məhsulun 3 %) saxtalaşdırma əleyhinə mexanizmə tabe olur. Təqvim ilinin əvvəlindən saxtalaşdırma mexanizminə tabe olan bir və ya daha çox məhsulun idxalı müəyyən miqdarın 70% -ni təşkil etdikdə, Avropa Komissiyası Gürcüstan hökumətinə müəyyən bir məhsulun idxalının həcmi barədə məlumat verir.

Gürcüstanın Avropa Birliyinə ixracın mümkün həddi aşmaq haqqında əsaslandırılmış (məsələn, istehsalat ölçüsünün artırılması, zəngin məhsuldarlıq və sairə) sübutları təqdim edə bilər.

Belə vəziyyətdə Gürcüstan Avropa Birliyinə gömrük vergisi olmadan mexanizmlə nəzərdə tutulan miqdardan daha çox məhsulun ixracını həyata keçirə bilər.

Gürcüstan tərəfindən imzalanan digər sərbəst ticarət müqavilələrindən fərqli olaraq, DCFTA həm mal, həm də xidmət ticarətinin liberallaşdırılması deməkdir. Bundan başqa, DCFTA ticarətlə əlaqəli məsələlərin geniş spektrini əhatə edir (məs.: qida təhlükəsizliyi, rəqabət siyasəti, intellektual əmlakın qorunması, maliyyə xidməti və s.) və Gürcüstanın ticarətlə əlaqəli qanunvericiliyinin Avropa Birliyi qanunvericiliyinə yaxınlaşdırılmasını nəzərdə tutur.

### DCFTA aşağıdakı başlıqları əhatə edir

- Mal ticarəti;
- Ticarətdə müdafiə ölçüləri;
- Ticarətdə texniki maneələr, standartlaşdırma, metrologiya, akreditasiya və uyğunluğun qiymətləndirilməsi;
- Sanitar və fitosanitar ölçülər;
- Gömrük və ticarət imkanları;
- Əsasını qoymaq, xidmət ticarəti və elektron kommersiya;
- Cari ödənişlər və kapital hərəkətləri;
- Dövlət satınalmaları;
- İntellektual əmlak hüquqları;
- Rəqabət;
- Enerji sahəsində ticarətlə əlaqəli müddəalar;
- Şəffaflıq;
- Ticarət və davamlı inkişaf;
- Mübahisələrin həlli;
- Yaxınlaşdırma ilə bağlı ümumi müddəalar.

### Fəaliyyət 3: Qrup işi

Təlimçi iştirakçıları ticarət dinamikasının müxtəlif alətləri ilə tanış edir və qrup tapşırıqları verir. Qrup üzvləri ixrac potensialına sahib məhsulu seçir, əmtəə kodunu axtarır və müxtəlif illərdə müxtəlif ixracat ölkələrində dinamikanı, həmçinin əsas ixrac tarifi və qeyri-tarif tələblərini görürlər.

## 3.2. Avropa Birliyinə və Şenqen ölkələrinə vizasız giriş

<u>Giriş hissə - məlumat sessiyası</u>

Məşğələnin qeyd olunan hissəsində iştirakçılara Gürcüstan vətəndaşlarının Avropa Birliyinə emmiqrasiyası, onların beynəlxalq müdafiəsi və qeyri-qanuni miqrasiyası ilə əlaqədar məlumat veriləcək. Məlumat Gürcüstanda və Avropa Birliyində miqrasiya sahəsində mövcud olan qanunvericiliyi və onun fəaliyyətini əhatə edir. Miqrasiyanın ölkə iqtisadiyyatındakı rolu haqqında ümumi məlumat veriləcək (pul köçürmələri statistikası, onun birbaşa xarici investisiyalara nisbəti və ölkənin ÜDM-dəki payı). Bununla birlikdə miqrasiya istiqamətində Gürcüstan- Avropa Birliyi əlaqələrinin tarixi ekskursu təqdim ediləcək (məs: viza fasilitasiyas, readmissiya, sirkular miqrasiya sxemləri və s.). Giriş hissə həmçinin iştirakçılar üçün əmək miqrasiyası haqqında məlumat şatdırılmasını əhatə edir.

### Vizanın liberallaşdırılması hisssi – məlumat sessiyası

Qeyd olunan hissə Vizanın liberallaşdırılması prossesi haqqındadır və viza dialoqunun başlamasından vizasız səyahətə qədər olan dövrü əhatə edir. Verilmiş hissədə təlimçi ilə təlim iştirakşıları arasında Viza liberallaşdırlmasının fəalliyət planı ilə nəzərdə tutulan fəaliyyətlər və onların həyata keçirilməsi kimi məsələlər haqqında qarşılıqlı müzakirə olacaq. Konkret misallar və onların ölkənin demokratikləşmə prossesində rolu təqdim olunacaq (məs: şəxsi məlumatların qorunması haqqında qanunvericiliyin qəbu edilməsi və təkmilləşdirilməsi; inzibati qanunvericiliyin qəbul edilməsi və ona olan ehtiyac; "Yaşıl sərhəddə" mövcud olan infrastrukturun təkmilləşdirilməsi; sənədlərin təhlükəsizliyi və s.) Vizasız səyahət və onun işğal olunmuş ərazilərdə yaşayan əhaliyə təsiri.

### Avropa Birliyi və Şenqen ölkələrində qanuni işlə təmin olunma - diskussiya

Məşğələnin üçüncü hissəsi Avropa Birliyi və Şenqen ölkələrində qanuni işlə təmin olunmanın yollarına toxunacaq.  Xüsusən, qeyd olunan hissədə sirkular miqrasiyanın mövcud sxemləri və onların praktikada istifadəsi haqqında söhbətlər olacaq. Söhbətlər həmçinin mövcuq qanunvericilik çərçivəsinə toxunacaq. Əmək miqrasiyası baxımından Avropa Birliyinə daxil olmayan ölkələrə də (məs: Türkiyə və Rusiya) xüsusi diqqət yetiriləcək. Bu məsələni müzakirə edərkən, COvİD-19 pandemiyasının yayılması və onun əmək miqrasiyasına, dolayısı ilə ölkə iqtisadiyyatına təsiri haqqında da müzakirə aparılacaq.

### Praktik məlumat - vizanın liberallaşdırılmasından sonra Avropa Birliyi və Şenqen ölkələrində - Müzakirə

Verilmiş hissədə iştirakçılara hansı halda gürcüstan vətəndaşına Avropa Birliyi və Şenqen ölkələri sərhəddini keçmə hüququ verildiyi haqqında praktik məlumat veriləcək. Xüsusən, onlara sərhəddi keçərkən təqdim olunacaq sənədlər haqqında məlumat veriləcək. Həmçinin verilmiş hissədə  vizasız səyahətin həm hədəf, həm də mənşə ölkələrinə olan təsirdən danışılacaq.

Yekun hissə - məlumat sessiyası və diskussiya
Son hissədə məşğələnin iştirakçıların əldə etdikləri bili və bacarıqlar yekunlaşdırılacaq. Bununla bərabər, onlara faydalı mənbələr haqqında məlumat veriləcək. Həmçinin vizanın liberallaşdırılmasının dayandırılması mexanizmi  və onun həyata keçirilməsi riskləri haqqında söhbət ediləcək.

## 3.3. Avropa Birliyi ilə təhsil proqramları

Giriş hissə

İştirakçılarla tanış olma, məşğələnin məqsədləri ilə tanış olma və iştirakçılarn gözləntilərinin müəyyən edilməsi.  İştirakçılarla sual-cavab vasitəsilə Erasmus proqramları haqqında nəzəri hissə üçün zəmin hazırlamaq.

### Beynəlxalq kredit yerdəyişməsi (International Credit Mobility- ICM)

Məlumat sessiyası və enerjizer

Beynəlxalq Kredit yerdəyişmə (International Credit Mobility - ICM), ali təhsil tələbələri və akademik / inzibati heyəti üçün qısa müddətli mübadilə proqramıdır. Mübadilə proqramları Gürcüstan və Avropa (proqram ölkələri) universitetləri arasında imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilir.

Tələbə beynəlxalq kredit yerdəyişməni həyata keçirə bilmək üçün bakalavr, magistratura, doktorantura tələbəsi olmalıdır. Tələbə əvvəlcə öz universitetində daxili, daha sonra isə qəbul edən universitetdə konkursdan keçir. Hər bir tələbənin təhsul məqsədəri üçün cəmi 12 ay (hər səviyyədə) qrant alma imkanı var. Tələbə ali təhsil müəssisəsində qeydiyyatdan keçməlidir və axırda ona tanınmış akademik dərəcə və ya ali kvalifikasiya səviyyəsi (doktorant dərəcəsi daxil olmaqla) verəcək tədris prossesinə qoşulmalıdır. Yerdəyişmə çərçivəsində proqram təhsil və səyahət xərclərini tamamilə ödəyir. Bundan başqa, tələbənin getdiyi ölkədən asılı olaraq, 800-900 avro aralığında təqaüdü olur.

### Yerdəyişmə üçün vacib sənədlər

- CV - Europass formatından istifadə etmək arzuolunandır;
- tələbəlik haqqında arayış;
- dil biliyi sertifikatı ( bəzi hallarda universitetdə dil testi aparılır);
- motivasiya məktubu;
- kreditləri və qiymətləri birlikdə artıq keçilmiş fənnlərin siyahısı;
- bəzi hallarda əlavə olaraq professordan tövsiyyə məktubu.

### Birgə Magistr Proqramları (JMD)

Məlumat sessiyası və cütlüklərlə iş

Birgə Magistr Proqramları Bu, bir sıra Avropa ölkələrinin universitetləri tərəfindən birgə hazırlanan bir proqramdır. Ərizəçi, ya öz ölkəsində, ya da başqa bir ölkədə bakalavr proqramını tamamladıqdan sonra müstəqil olaraq proqramı seçir. Ərizəçi ərizəni fərdi olaraq birbaşa proqramı əlaqələndirən universitetə təqdim edir. Seçilmiş namizəd bir neçə meyara görə seçilir.

### Proqramda kimlər iştirak edə bilər?

- Bakalavr diplomu olan (və ya bakalavrın sonuncu kursunda olan) istənilən könüllü;
- Yaş məhdudiyyəti yoxdur;
- Aktiv tələbə statusu lazım deyil;
- Bakalavr və ya Magistratura səviyyəsində əvvəl alınmış ERASMUS + təqaüdü maneə təşkil etmir.

Tədris prossesi magistratura proqramında iştirak edən ən azı iki Avropa universitetində həyata keçirilir (Avropa daxilində səyahət xərclərini proqram ödəyir). Magistratura proqramının həcmi 120,90 və ya 60 ECTS kredit ola blər, müvafiq olaraq təhsil müddəti bir və iki il arasında dəyişə bilər. Magistratura proqramını bitirdikdən sonra birgə (Joint Degree) və ya çoxlu (Multiple Degree) akademik dərəcə verilir. Xaricdə alınan akademik dərəcələrin tanınması prossesi Gürcüstanda Təhsil keyfiyyətinin milli inkişaf mərkəzi (www.eqe.ge) tərəfindən həyata keçirilir.

### Konkursda iştirak etməyin qaydaları

- Bir ərizəçi (bir müsabiqə çərçivəsində) eyni vaxtda ən çox üç proqram üçün müraciət edə bilər;
- Ərizəçi fərdi olaraq ərizəni birbaşa proqramı əkoordinasiya universitetə göndərir (əlqə məlumatları konkret proqramın vebsəhifəsində verilmişdir). Ərizə onlayn rejimdə yazılır. Bütün detalları koordinasiya edən universitetlə əvvəlcədən öyrənməlisiniz, çünki konkurs qaydaları proqramlara görə dəyişə bilər.

### Nəzərə almağınız mühümdür

- Ümumi xüsusiyyətlərə baxmayaraq, hər proqramın fərdi tələbləri var. İncəlikləri mütləq proqramın vebsəhifəsində yoxlayın. Əlavə olaraq proqramın məsul şəxsinə müraciət edin (məlumata proqramın veb səhifəsində baxın);
- Proqrama ərizə qəbulu iki dəfə elan olunur- bir dəfə təqaüd axtaranlar üçün ( scholarship seekers) və bir dəfə təqaüdə ehtiyacı olmayan və öz təhsillərini maliyyələşdirmək niyyətində olanlar üçün. Son tarixlər fərqlənə bilər;
- Biz vebsəhifəmizdə hər magistratura proqramına sənəd qəbulunun tarixlərini dərc edə bilmərik (100-dən çox proqram var), belə ki, ərizəçi onun üçün maraqlı olan magistratura proqramlarının vebsəhifələrini özü izləməlidir;
- Qəbul ümumiyyətlə payızda elan edilir, sənədlərin hazırlanması üç ilə beş ay çəkir. Sənədlərin qəbulu üçün son tarixlər - payızın sonu və ya növbəti ilin yanvar-mart aylarıdır. Təqaüd alma haqqında bildiriş ən gec mayda gəlir. Tədris avqust-oktyabr aylarında başlayır (proqramdan asılıdır).

### Proqramda iştirak etmək üçün vacib sənədlər

- motivasiya məktubu
- ərizə forması
- inglis dilinin müvafq səviyyəsini təsdiq edən sertifikat (IELTS, TOEFL...)
- tövsiyyə məktubu (müxtəlif fəaliyyət sahələrindən olması arzuolunandır)
- CV
- diplom+diplomun əlavəsi
- qalanları proqramın tələblərindən irəli gəlir.

### Praktik hissə: Motivasiya məktubunu və CV-ni necə dolduraq

**Avropa Həmrəylik Korpusu (ESC)**
Məlumat sessiyası

ESC (European Solidarity Corp.) - Avropa Həmrəylik Korpusu - Proqram həmrəyliyi könüllülük yolu ilə bir dəyər kimi təbliğ etmək, gənclərin müxtəlif fəaliyyətlərə cəlb olunmasını artırmaq məqsədi daşıyır. Layihə çərçivəsində seçilmiş iştirakçı 2 aydan 1 ilədək müddətə xaricə gedir, əvvəlcədən seçilmiş bir təşkilatda könüllü olur və onu ən çox maraqlandıran sahədə təcrübə qazanır.Avropa Həmrəylik korpusu aşağıdakı proqramları əhatə edir: könüllülük, həmrəylik layihələri, staj, iş.

Gürcüstan vətəndaşlarının yalnız ECS könüllülük fəaliyyətlərinə qeydiyyat olma və iştirak etmə hüququ var

ESC-nin mövcud proqramı EVS-ni (European Volunteering Service - Avropa Könüllü Xidməti) 2 aydan çox müddətdə bitirən insanlar bundan sonra ESC proqramlarında iştirak edə bilməyəcəklər. 18-30 yaş arası gənclər 2-dən 12 aya qədər müddətə layihədə iştirak edə bilərlər. Həm özəl, həm də dövlət qurumu ola biləcək fərqli təşkilatlarda könüllü olmaq məcburiyyətində qalacaqlar.

Aşağıda ESC proqramında iştirak etmək üçün könüllü olmağınız lazım olan sahələrin siyahısı verilmişdir.Ərizəni doldurarkən, hər bir proqram üçün layihənin nə ilə əlaqəli olduğu haqqında məlumatınız var. Bunlar ola bilər:

| | | | |
|---|---|---|---|
| **inkluziya** | **miqrasiya** | **vətəndaşlıq və demokratiya** | **Təbii fəlakətlər** |
| **ətraf-mühitin qorunması** | **sağlamlıq və rifah** | **təhsil və tədris** | |
| **yaradıcılıq** | **işlə təmin etmə** | **idman** | |

Əgər siz ESC proqramında iştirak etməyə qərar veribsinizsə, sizə qəbu edən (vakansiya elan edən) və göndərən (Gürcüstandan) təşkilat lazım gələcək.

**Göndərən, dəstəkləyən təşkilatın məsuliyyətləri**

- göndərənə qədər hazırlıq/ məşğələ, konsultasiya;
- ev sahibi təşkilat ilə müraciət edən arasında vasitəçi rolunu oynayır;
- viza, siğorta və başqa sənədlərlə təmin etmək.

**Qəbul edən, ev sahibi təşkilatın məsuliyyətləri**

- Könüllünü seçmək, onunla ünsiyyət qurmaq;
- Aylıq gəlir, mənzil və digər xərclərin təmin etmək;
- Layihənin hər bir mərhələsində könüllünü dəstəkləmək.

**Yekun hissə: Yekunlaşdırma və ümumi diskussiya.**

MƏŞĞƏLƏ VƏSAITI
GÜRCÜSTAN SIYASƏT INSTITUTU (GIP) | 2020